# Qələbə bizimdir! Qarabağ Azərbaycandır!


# XALQ QƏZETİ

№ 206 (29748) 26 sentyabr 2021-ci il, bazar

Qəzet 1919-cu ildən nəşr edilir
www.xalqqazeti.com

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ




*Bundan sonra əsrlər boyu Azərbaycan xalqı bu qələbəni öz ürəyində, qəlbində yaşadacaq! Çoxəsrlik Azərbaycan tarixində buna oxşar parlaq qələbə və mütləq qələbə olmamışdır.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*

# Qələbə Azərbaycanın gücü və xalqımızın birliyi ilə əldə edildi

***Ötən il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin bütün cəbhəboyu genişmiqyaslı təxribatlarına cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Prezident, Ali Baş Komandan İlham Əliyev həmin gün xalqa müraciət edərək, bu barədə məlumat verdi. Dövlətimizin başçısı Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən, ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutduğunu bildirdi. Ölkə rəhbəri daha sonra dedi: "Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nətcəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür".***

Prezident İlham Əliyev tarixi müraciətində son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatlarının müntəzəm xarakter aldığını, iyul ayında isə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində yenə də artilleriya atəşi nəticəsində hərbçilərimizin və bir mülki şəxsin həlak olduğunu, diqqətə çatdıraraq, ilk atəşin, o cümlədən, artilleriya atəşinin Ermənistan tərəfindən açıldığını və ilk həlak olanların da məhz Azərbaycan həbçilərinin olduğunu vurğuladı.

Dövlətimizin başçısı müraciətində Azərbaycanın haqq yolu tutduğunu, ədalətin tərəfində olduğunu, ona görə də xalqımızın qələbə qazanacağını, zəfər çalacağını əminliklə bildirdi.

Beləliklə, ötən il sentyabrın 27-də səhər saatlarından etibarən Ermənistan ordusunun həyata keçirdiyi təxribatlar Azərbaycan Ordusunun əks-hücum əməliyyatı ilə nəticələndi. Silahlı qüvvələrimizin həyata keçirdiyi sürətli əks-hücum nəticəsində döyüşlərin ilk günü Murovdağ və Ağdərə istiqamətlərində strateji yüksəkliklər və bir sıra kəndlər işğaldan azad olundu. Bu, silahlı qüvvələrimizin Vətən müharibəsində ilk böyük uğuru idi və xalqımız tərəfindən böyük sevinclə qarşılandı, həmçinin, tez bir zamanda Azərbaycan Ordusunun hərbi uğurlarının daha da genişlənəcəyi və yeni ərazilərin işğaldan azad edilməsi ilə nəticələnəcəyi əminliyi yaratdı.

Prezident, Ali Baş Komandan İlham Əliyev müharibənin ilk günlərindən başlayaraq, dəfələrlə Ermənistana xəbərdarlıq etdi, işğalçını hərbi təxribatlardan əl çəkməyə, mülki obyektlərin atəşə tutulmasını dayandırmağa, atəşkəs rejiminin qaydalarına əməl etməyə, münaqişənin sülh yolu ilə həlli istiqamətində Azərbaycan tərəfinin səylərinə adekvat reaksiya verməyə səslədi. Lakin rəsmi İrəvan Azərbaycan tərəfinin bu çağırışlarına məhəl qoymayaraq, təxribatlarını davam etdirdi. Bu da ordumuzun bütün cəbhəboyu əks-hücum keçməsi ilə nəticələndi.

Silahlı qüvvələrimizin ortaya qoyduğu əzm və iradə bir daha Azərbaycanın işğal faktı ilə barışmayacağını və düşməni silah gücünə də olsa, bu torpaqlardan çıxaracağını, ölkəmizin ərazi bütövlüyünü təmin edəcəyini təsdiqlədi. Prezident, Ali Baş Komandan İlham Əliyevin Azərbaycan xalqına müraciəti, habelə Təhlükəsizlik Şurasının iclasındakı çıxışı da dövlətimizin təxribatların qarşısını almaq üçün lazımi güc və qətiyyətə sahib olduğunu və bu istiqamətdə bundan sonra da zəruri addımları atacağını göstərdi.

Şübhəsiz ki, müharibənin başlanmasına görə bütün məsuliyyət işğalçı, təxribatçı Ermənistanın üzərinə düşürdü. Lakin 30 ilə qədər bir müddətdə olduğu kimi, yenə də beynəlxalq təşkilatlar, dünya birliyi düşmənin təxribatlarını susqunluqla qarşıladı, işğalçı dövlətə layiq olduğu münasibəti sərgiləmədi. Lakin Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi təxribatının ilk saatlarından etibarən başda Prezident Rəcəb Tayyib Ərdoğan olmaqla qardaş Türkiyə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü qətiyyətlə pislədi və özünün birmənalı dəstəyini göstərdi. Rəcəb Tayyib Ərdoğan Ermənistanın Azərbaycana qarşı yeni hücumlarını bölgədə sülhün və sabitliyin qarşısında ən böyük təhlükə olduğunu bir daha vurğuladı. Türk millətinin hər zaman olduğu kimi, belə bir vaxtda da bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanında olduğunu qeyd etdi.

Türkiyədə fəaliyyət göstərən Azərbaycan mədəniyyət və həmrəylik cəmiyyətləri tərəfindən də Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatları ilə bağlı bəyanat yayıldı. "Biz, Türkiyədə fəaliyyət göstərən QHT-lər olaraq bütün türk milləti ilə birlikdə haqlı davasında Azərbaycanın yanındayıq. Uzun illərdir ki, Azərbaycan torpaqlarını işğal edərək bölgədə gərginlik yaradan, beynəlxalq hüquq normalarına məhəl qoymayan, dəstəkçiləri ilə birlikdə Cənubi Qafqazı müharibə meydanına çevirməyə çalışan, minlərlə günahsız insanın ölümünə, eləcə də Xocalı soyqırımına səbəb olan Ermənistanı qətiyyətlə qınayırıq…"



Vətən müharibəsinin ilk günlərindən qələbə arzusu ilə yaşayan xalqımız savaşa səfərbər oldu. Azərbaycanda yaşayan etnik icma rəhbərləri tərəfindən Ermənistanın təxribatları ilə bağlı bəyanat yayıldı. Həmin bəyanatda deyilirdi: "Biz Ermənistanın növbəti çirkin böhtan kampaniyasını qətiyyətlə pisləyir və bir daha bəyan edirik: İşğalçı və marionet Ermənistan dərk etməlidir ki, Azərbaycanın bütün xalqları Vətənimizin ərazi bütövlüyünün bərpası, torpaqlarımızın düşməndən azad olunması, məcburi köçkünlərimizin öz ata-baba yurdlarına, Azərbaycanın tarixi torpaqlarına qayıtması uğrunda aparılan müqəddəs mübarizədən heç vaxt kənarda qalmamışdır.

Biz etnik və dini mənsubiyyətimizdən asılı olmayaraq, Azərbaycan əsgərlərinin döyüş bölgələrində uğurlarına sevinəndə, şəhidlərimizə göz yaşları tökəndə onların etnik mənsubiyyətini soruşmuruq. Biz ürəkdən inanırıq və əminik ki, tezliklə Azərbaycanın rəşadətli ordusu üçrəngli bayrağımızı Şuşada, Xankəndidə dalğalandıracaq, şəhidlərimizini qisasını alacaq və mənfur düşmən üzərində böyük qələbə sorağı ilə bizi sevindirəcəklər. Azərbaycan əsgərlərin isə hansı xalqa məxsus olmalarının, hansı dildə danışmalarının və hansı dinə tapınmalarının heç bir əhəmiyyəti yoxdur. Çünki Azərbaycan bizim doğma Vətənimiz, Azərbaycan Respublikası bizim də dövlətimizdir. Onun hər qarış torpağı Azərbaycan xalqları üçün müqəddəs və əzizdir. qələbə bizimdir!"

Azərbaycan 44 günlük Vətən müharibəsinin ilk günlərindən etibarən, həm də informasiya mübarizəsi apardı. Prezident İlham Əliyev dünyanın aparıcı informasiya agentliklərinə, televiziya kanallarına verdiyi çoxsaylı müsahibələrində suallara dəqiq, məntiqli, faktlara söykənən cavabları ilə Qarabağ müharibəsi haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırdı. Bununla da düşmənin və havadarlarının ölkəmiz haqqında yaydığı qərəzli, saxta məlumatları təkzib etdi, onların bütün avantüra, qarayaxma kampaniyalarının, təzyiq cəhdlərinin qarşısını qətiyyətlə aldı, xalqımızın beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında haqq savaşı apardığını bildirdi.

*(ardı 2-ci səhifədə)*

# Qələbə Azərbaycanın gücü və xalqımızın birliyi ilə əldə edildi

*(əvvəli 1-ci səhifədə)*

Vətən müharibəsi günlərində dövlətimizin başçısının beynəlxalq ictimaiyyət üçün nəzərdə tutulan ardıcıl çıxışları, Azərbaycan Respublikası Prezident Administrasiyası və Müdafiə Nazirliyinin mətbuat xidmətlərinin, hərbi informasiya mərkəzlərinin məlumatları informasiya müharibəsində boşluğun yaranmasının qarşısını aldı. Belə bir vəziyyət isə təbii ki, düşmənin saxta xəbərlərinin (fake news), necə deyərlər, ayaq açıb yerimәsinə imkan vermədi.

Beləliklə, xalq-iqtidar birliyi, Azərbaycan Ordusunun şücaəti cəbhədə davamlı uğurlarımızı şərtləndirdi.

Bir qərinəyə yaxın dövr ərzində aparılan danışıqlar prosesində düşmən dövlətin reallaşdırmaq istədiyi niyyət gerçəkləşmədi, Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi həyata keçmədi, bu bölgədə yeni erməni dövlətinin yaradılması planı isə tamamilə alt-üst oldu.

Vətən müharibəsində məğlubiyyətə uğrayan Ermənistan üzərinə götürdüyü kapitulyasiyanın tələblərinin ödənilməsi barədə razılığa gəldi, şərtlərə uyğun olaraq, əvvəlcə Ağdam şəhərini və rayonun işğal altında qalan kəndlərini qeyd-şərtsiz azad etdi. Növbəti mərhələdə isə ölkəmizin əzəli və əbədi torpaqları olan Kəlbəcər və Laçın rayonları rəşadətli Azərbaycan Ordusunun tam nəzarətinə keçdi.

Noyabrın 20-də xalqa müraciətində dövlət başçımız qeyd etdi ki, əgər Silahlı Qüvvələrimiz Ermənistanı ordusunu döyüş meydanında məğlub etməsəydi, işğalçı öz xoşu ilə torpaqlarımızdan çıxmayacaqdı: "Bunu deməyə əsas verən bir çox amillər var. İlk növbədə, o bölgələrdə – işğal edilmiş torpaqlarda qurulmuş istehkamlar, oraya böyük vəsait xərclənib. O istehkamlar elə qurulub ki, Azərbaycan Ordusu oradan keçə bilməsin. Amma yenə də səhv etdilər. Bizim gücümüzü düzgün hesablaya bilmədilər. Bilmirdilər ki, bu gün Azərbaycan Ordusu, Azərbaycan vətəndaşı nəyə qadirdir. Bilmirdilər ki, bizi o qələbəyə aparan həm gücümüzdür, texniki təchizatımızdır, həm də mənəvi ruhumuzdur. Bilmirdilər ki, Azərbaycan xalqı bütün bu illər ərzində bir arzu ilə yaşayır ki, öz dədə-baba torpağına qayıtsın. Bütün bu amillər və digər amillər bu qələbəni şərtləndirdi".

Beləliklə, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə sentyabrın 27-dən başlanan Vətən müharibəsi şanlı qələbə ilə sona çatdı, 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu işğalçı Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək, böyük zəfərə imza atdı.

Ordumuzun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik yağılardan təmizləndi.

Azərbaycan böyük qələbənin ilk addım səslərini noyabrın 8-də Qarabağın ürəyi sayılan, incisi hesab olunan Şuşa şəhərinin işğaldan azad edildiyi ilk saatlarda eşitdi. Bəli, bu qədim yurd yerimizin xilası ilə tam qələbəmizə yol açıldı. Düşmənin ağ bayraq qaldırmaq və kapitulyasiya etməkdən başqa yolu qalmadı. Buna Ali Baş Komandan, məğlubedilməz Sərkərdə İlham Əliyev nail oldu.

Döyüşdə uduzan, məğlub olan Ermənistanın öz müqavimətini dayandırmaqdan, Azərbaycanın şərtlərini qeyd-şərtsiz qəbul etməkdən başqa əlacı qalmadı. Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin birgə imzaladıqları bəyanat da məhz düşmən ölkənin kapitulyasiyasının ifadəsi idi. Müharibədə ağır itkilər verərək, məğlubiyyətin qaçılmazlığını anlayan, dərk edən işğalçı respublikanın rəhbərliyi Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtlərlə razılaşmağa məcbur oldu.

Onu da qeyd edək ki, kapitulyasiya aktını şərtləndirən Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin arasında əldə edilən məlum razılaşma Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunması baxımından tarixi əhəmiyyət daşıyırdı, eyni zamanda, bəyanatla Qarabağa heç bir status verilməyəcəyi, Naxçıvanla Azərbaycanın quru əlaqəsinin reallaşacağı, Naxçıvanın blokadadan çıxacağı, habelə qardaş Türkiyənin sülhməramlı prosesdə iştirak edəcəyi bildirilirdi. Ümumiyyətlə, böyük siyasi, diplomatik səy hesabına əldə edilən bütün bu uğurlar Azərbaycanın tarixi qələbəsi, işğalçı Ermənistanın və dünya erməniliyinin isə ağır məğlubiyyətinin ifadəsi idi.

Burada mühüm bir məqamı da xatırlatmaq istərdik. Azərbaycan Ordusu bir güllə belə atmadan, itki vermədən, yalnız Ermənistanı kapitulyasiyaya məcbur etməklə Kəlbəcər, Ağdam və Laçın rayonlarını işğalçılardan təmizləməklə həm də BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərini yerinə yetirdi. Yeri gəlmişkən, o qətnamələrdə qəsbkardan bütün hərbi əməliyyatları dərhal dayandırması, işğal altındakı rayonlardan dərhal, tam və qeyd-şərtsiz çıxması tələb edilirdi.

Lakin ötən 27 ildə Ermənistan tərəfindən bu qətnamələrin tələbləri yerinə yetirilmədi. Əksinə, düşmən ölkənin baş naziri Azərbaycana qarşı 7 şərt irəli sürməkdən, ayrı-ayrı vaxtlarda "Artsax Ermənistandır, nöqtə" kimi təcavüz xarakterli şüarlar səsləndirməkdən, bütün bunlarla bərabər, Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz məskunlaşdırma siyasəti aparmaqdan, terrorçuları həmin bölgələrdə yerləşdirməkdən belə çəkinmədi. Beləliklə, qəsbkarın həyata keçirdiyi təxribatlar, hücumlar təcavüzkara əsl dərs verilməsinin zamanının gəldiyini aşkar şəkildə dünyaya göstərdi.

Məsələyə məsul ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyətində isə biganəlik özünü qabarıq göstərdi. Nəhayət, qeyd edildiyi kimi, Azərbaycan Ordusu əks-hücum əməliyyatları ilə parlaq qələbə qazanaraq, qətnamələrin icrasını hərb yolu ilə gerçəkləşdirdi.

Vətən müharibəsi günlərində Azərbaycana güclü təhdidlər, təzyiqlər oldu. Ancaq bunlar ölkəmizi haqq yolundan döndərə bilmədi. Ölkə başçımızın qeyd etdiyi kimi: "Heç kim bizim qabağımızda dura bilməz, bizə şərt qoya bilməz. Bizə müharibənin ilk günlərində şərt qoymaq istəyən, hədələmək istəyən, şərləmək istəyən ölkələrin, bəzi Qərb ölkələrinin nümayəndələri sərt cavabımızı aldılar. Gördülər, biz o ölkələrdən deyilik ki, kiminsə qabağında baş əyək və mən də o liderlərdən deyiləm ki, kimdənsə nə isə qəbul edim, hansısa sözü. Artıqlaması ilə cavab vermişəm və verəcəyəm lazım gəldikdə".

Prezident, Ali Baş Komandan İlham Əliyevin bu cür qətiyyəti, milli birliyimiz və ordumuzun qəhrəmanlığı sayəsində Vətən müharibəsi qələbə ilə başa çatdı, işğalçı Ermənistan təslim olmağa məcbur edildi. Döyüş meydanında, diplomatiya sahəsində qazanılan qələbə Azərbaycanın gücünü və xalqımızın nəyə qadir olduğunu bir daha bütün dünyaya göstərdi.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***